# 22 iyul - Milli Mətbuat günüdür




## Beynəlxalq imicin formalaşmasında mətbuatın rolu

Müasir Azərbaycan jurnalistikası ölkənin beynəlxalq imicinin formalaşdırılmasında mühüm rol oynayır.

Düz 151 il əvvəl Həsən bəy Zərdabinin böyük fədakarlığı nəticəsində nəşrə başlayan "Əkinçi" qəzeti milli mətbuatımızın əsasını qoymaqla yanaşı, xalqımızın maariflənməsi, milli şüurun formalaşması və Azərbaycançılıq ideyalarının geniş yayılmasında mühüm rol oynadı. Sonrakı dövrlərdə meydana çıxan çoxsaylı qəzet və jurnallar da bu ənənəni davam etdirərək ölkəmizin ictimai-siyasi və mədəni həyatının inkişafına mühüm töhfələr verdilər. Milli mətbuatımızın keçdiyi şərəfli yol Azərbaycan dövlətçilik tarixinin ayrılmaz hissəsidir.

Azərbaycan mətbuatının müasir inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. 1993-cü ildə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkədə ictimai-siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik təsisatların inkişafını da dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Mətbuatın sərbəst fəaliyyəti üçün hüquqi əsasların möhkəmləndirilməsi, fikir və söz azadlığının təmin olunması, medianın fəaliyyətinə mane olan süni məhdudiyyətlərin aradan qaldırılması həmin siyasətin mühüm tərkib hissəsi idi. Xüsusilə dövlət senzurasının ləğvi Azərbaycan jurnalistikasının inkişafında dönüş nöqtəsi oldu və milli medianın müasir prinsiplər əsasında formalaşmasına geniş imkan yaratdı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə media sahəsində həyata keçirilən ardıcıl islahatlar milli informasiya məkanının daha da gücləndirilməsinə xidmət edir. Müasir dövr informasiyanın strateji resursa çevrildiyi bir mərhələdir. Belə şəraitdə güclü, peşəkar və məsuliyyətli medianın mövcudluğu dövlətin milli maraqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Son illərdə media qanunvericiliyinin təkmilləşdirilməsi, jurnalistlərin peşəkarlığının artırılması, informasiya təhlükəsizliyinin gücləndirilməsi və rəqəmsal medianın inkişafına göstərilən dövlət dəstəyi bu sahənin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edib. Müasir Azərbaycan jurnalistikası artıq yalnız xəbərlərin çatdırılması funksiyasını yerinə yetirmir, eyni zamanda ölkənin beynəlxalq imicinin formalaşdırılmasında mühüm rol oynayır. Bu gün informasiya məkanında gedən rəqabət dövlətlər arasında mübarizənin əsas istiqamətlərindən birinə çevrilib. Belə bir şəraitdə obyektiv, operativ və milli maraqlara söykənən jurnalistika xüsusi əhəmiyyət daşıyır. Azərbaycan mediası son illərdə, xüsusilə tarixi Zəfərimizin beynəlxalq ictimaiyyətə düzgün çatdırılması prosesində böyük peşəkarlıq nümayiş etdirib. Şübhə yoxdur ki, milli mətbuatımız özünün zəngin ənənələrinə sadiq qalaraq bundan sonra da cəmiyyətimizin inkişafına, vətəndaş həmrəyliyinin möhkəmlənməsinə və Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə mühüm töhfələr verməyə davam edəcək.

## Dünən... Bu gün... Sabah...

Bildiyimiz kimi, Milli mətbuatımızın əsası 1875-ci il iyulun 22-də Həsən Bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə qoyulub. Bu tarix təkcə Azərbaycan jurnalistikasının deyil, həm də xalqımızın milli oyanış, maarifçilik və dövlətçilik tarixinin başlanğıc nöqtələrindən biri hesab olunur.

Zaman sabit deyil, daima faktiki rəqəmlərlə dəyişir. Hər dəyişən rəqəm isə yaşanılan həyatın tərzini dövrə uyğunlaşdırır. Sivilizasiyalar irəlilədikcə tərzlər də dəyişir və hər zamanın da öz hökmü, özünəməxsus inkişafı formalaşır. Tarixə nəzər salsaq insanların həyat tərzinin hər zamanın-qərinələrin, əsrlərin, illərin, yaşanılan dövrə uyğunlaşaraq inkişaf etdiyini görərik. İnsanların əl əməyinin avtomatlaşdırılaraq texnologiyanın müasir zamanla intensivləşdirilməsi insan əməyini yüngülləşdirir. Belə müasir zamanda həyat tərzini yaşadığı həyatın qanunauyğunluqlarına köklənmək insanları bəzən bir çox problemlərlə üzləşdirir. Bu isə təbii hal kimi hər zaman kəsiyində yaşanılır. İnsan bu müasirliyi istər-istəməz qəbul edir və tədricən uyğunlaşır.

Hər əsrin inkişaf tarixi müasirlik deməkdir. Hər müasirliyin də öz nəsli var. Hər inkişaf tarixinin də köhnə ilə təzə dövr arasında-keçid ərəfəsində özünəməxsus problemlər yaşantısı mövcuddur. Məhz insanlar arasında təbliğ və təşviqat sahəsində olduğu kimi. Mətbuat məhz təbliğat, təşviqat işi, yaşanılan hər dövrün sabahki tarixidir. Nəsillər bir-birini əvəz etdikcə onların yaşadığı həyat, qəhrəmanlıq, gözəl missiyalar məhz qəzet, jurnal və kitablarda sənədli tarix kimi saxlanılır. Saxlanılan mənbələr insanlar tərəfindən axtarılır. Axı insan həmişə sənədlərə istinad edir.

Bu gün Azərbaycan milli mətbuatı ənənəvi çap mediasından rəqəmsal mediaya və qlobal informasiya şəbəkəsinə inteqrasiya edərək yeni inkişaf mərhələsini yaşayır. Rəsmi qəzetlər, xəbər saytları və sosial media platformaları informasiya müharibələri və dezinformasiyaya qarşı mübarizədə ölkənin milli maraqlarının qorunmasına xüsusi töhfə verirlər.

Mətbuat cəmiyyətə operativ, dəqiq, obyektiv və qərəzsiz informasiya təqdim etməli, milli maraqları, dövlətçilik prinsiplərini və ictimai həmrəyliyi hər zaman ön planda saxlamalıdır.

Jurnalistlər faktlara əsaslanan, peşə etikası normalarına uyğun fəaliyyət göstərməli, cəmiyyətin maarifləndirilməsinə, dövlətin beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə və milli maraqların qorunmasına töhfə verməlidirlər.

Yaşadığımız dövrdə dezinformasiyanın və informasiya müharibələrinin geniş vüsət aldığı bir zamanda medianın rolu daha da artır.

Qəzetimiz ən çətin dövrlərdə belə öz fəaliyyətini dayandırmamış, maddi çətinliklərlə üzləşsə də nəşr olunmuşdur. Ancaq son dövrlər redaksiyada tənəzzül yaşanmışdır. Yalnız abunə yazılışı və itən əşyaların reklamını bəzi nömrələrində çap edən qəzetimiz, redaksiya kollektivimiz bəzən əməkhaqqı ala bilməsə də qəzetin nəşr olunmasına çalışmışdır. Son iki ay (may və iyun) ərzində kollektiv qəzetin nəşrini dayandırmağa məcbur oldu və iyul ayından etibarən öz fəaliyyətini bərpa etmişdir.

Qəzet yarandığı gündən təbliğat və təşviqat işində ən başlıca sahə sayılmışdır. Ancaq qəzetin əhatə dairəsi, oxucusu çox olmalıdır ki, öz missiyasını yerinə yetirə bilsin. 80-ci illərdə rayon qəzetimiz həftədə 3 dəfə 6-7 min tirajla çap olunurdu. Xəbərlər operativ surətdə qəzetin səhifələrində dərc olunurdu.

Bir sözlə, onun hasilə gətirilməsində nə qədər çətinliklər olsa belə ən başlıcası oxucu məmnunluğu, mətbuata maraq hissi daha çox idi. Bu isə onunla izah olunurdu ki, televiziya, radio, qəzet və jurnallar əhaliyə xidmət edir, dövrün nəbzini tuturdu.

Yaşadığımız dövr, zaman irəlilədikcə insanların dünyagörüşü zənginləşdikcə onların vərdişləri də xarakterik xüsusiyyətlərinə görə dəyişir.

Qloballaşma, internet səhifələri, xəbər və materialların daha sürətli və geniş oxucu kütləsinə çatdırılması müasir dövrün ən başlıca xüsusiyyətidir. Bu operativlik təqdirəlayiqdir. Ancaq bu operativlikdə dəqiqlik və həqiqət təhrif olunub-olunmamasını hər bir oxucu çox aydın dərk edir və buna rəğmən qəbul edir. Həmçinin qəzetçilik və bəzi TV verilişlərində belə bu qloballaşmaya daha üstünlük verir.

Ancaq həqiqi mənada, diqqətinə yetsək, sosial səhifədə yayımların demək olar ki, çox faizi faktiki deyil, sensasiyon xəbər və müxtəlif mövzular təhrif olunmuş şəkildə yayımlanır. Hər kəs əlində qələm "tuta" bilirsə jurnal, qəzet nəşr etdirir, sayt açır, çoxlu qruplar, səhifələr fəaliyyət göstərir. Yazılan "söz yığınları" şeirə "çevrilir", daha sonra süni intellektlə bəzədilir və mahnı kimi oxunur. Elə aşağı səviyyədə kitablar çap olunur ki...

Bu isə insanları yalnış təbliğata istiqamətləndirir. Bayağılıq, sünilik baş alıb gedir. Bu isə savadsızlığın, həqiqətdən uzaqlığın ən başlıcası, əsl qələmin yazdıqlarının, ağıllı və istedadlı düşüncə tərzlərinin, əsl jurnalist qələminin kölgədə qalmasına gətirib çıxarır. Çap işlərinin keyfiyyətsizliyi bəzi müəlliflərin istək və arzularından doğur. Jurnalist vəsiqələrinin mətbuatdan xəbəri olmayanlara təqdim olunmasından doğulur.

Təsadüfi deyil ki, titul və fəxri adlar təsbit olunur və aid olmadığı, layiq olmadığı adamlara verilir, onlayn şəkildə... bəzən bir kitabı belə nəşr olunmayan və ya ziyalı təbəqəsinə, əsl jurnalistlərə ürək ağrısı təsiri bağışlayan yazıçılar birliyinin üzvləri mətbuat meydanında, yaradıcılıq sahəsində "Qələm göbələyi" kimi artırlar və mənəm-mənəmliklə layiq olanlara "dərs" keçirlər.

Bax, məhz buna görə də mətbuatımızın inkişafına xələl gətirənlərə qarşı mübariz olmalıyıq. Əsl sözün harada və necə təbliğ olunmasına diqqət etməliyik. Kitabların, qəzet və jurnalların onlayn yayımlanması və oxucuların məhz əsl mətbu orqanlarına cəlb olunmasına çalışmalıyıq. Jurnalist və mətbuat işçisi adının cılızlaşmasına yol verməməliyik. Unutmamalıyıq ki, mətbuat sabahki tarixdir. Gələcək nəsillər üçün qalacaq bir tarix, həqiqət dolu bir tarix.

Qəzetlərimizi yaşatmalıyıq. Qloballaşmanı da, doğru-düzgün qələm "məhsullarını" da diqqət mərkəzində saxlamalıyıq. Buna görə də qiraət edəndə əsl qəzet və jurnalları, kitabları, xəbər və verilişləri seçməliyik. Mövzu və düzgün ideyalar, ən başlıcası müəllif imzaları bizim diqqətimizdə olmalı. Oxuduğumuz kitab və mətbu orqanlarına diqqət etməli, xəbər portalları və saytlardakı yazıları zamanın tələbinə uyğunlaşdırmalı və düşünərək oxumalıyıq.

Belə olan təqdirdə doğru-düzgün qəzetlərin fəaliyyəti dayanmaz və aid olduğu ad, rəmzi tarix boyu qorunar.

Rayon qəzetləri aid olduğu məkanın obanın həqiqət güzgüsüdür. Bir elin, obanın tarixi salnaməsidir. Onu gələcək nəslə çatdırmaq üçün yaşatmalıyıq və bu ilk növbədə ziyalı kütləsinin eloğluluq borcudur.

Milli Mətbuat Günü münasibətilə əsl qələm sahiblərini, əsl jurnalistləri təbrik edir, onlara zehin açıqlığı və bol, obasına, elinə və ziyalısına qiymət verməyi bacaran oxucular "ordusu" arzulayırıq.

**BİBİXANIM.**

## "Mətbuatımızın şərəfli yolu" adlı tədbir



22 iyul 2026-cı il tarixində Qəbələ rayon Mədəniyyət Mərkəzində Milli Mətbuatımızın yaranmasının 151 illiyi ilə əlaqədar "Mətbuatımızın şərəfli yolu" adlı tədbir keçirilib. Tədbirdə rayonumuzun mətbu orqanı olan "Qəbələ səsi" qəzetinin əməkdaşları və rayon ziyalıları iştirak etmişdir.

Xatırlatma üçün qeyd edim ki, "Qəbələ səsi" qəzeti Qəbələ rayonunun ictimai-siyasi, sosial-iqtisadi, və mədəni həyatını işıqlandıran əsas regional mətbu orqanıdır. Qəzetin ilk nömrəsi 15 oktyabr 1933-cü ildə işıq üzü görüb. Fəaliyyətə "Bolşevik mübarizi" adı ilə başlamışdır. Növbəti illərdə "Mübariz", "Yeni həyat", "Qalibiyyət", müstəqillik dövründən etibarən isə "Qəbələ" adı ilə fəaliyyət göstərmişdir. 2025-ci ilin sentyabr ayından isə "Qəbələ səsi" kimi öz fəaliyyətini davam etdirir.



Tədbirdə qəzetimizin Baş redaktoru Azad Məmmədova, məsul redaktor, yazıçı-publisist Bibixanım İsayevaya, "Qəbələ Yazarlarına Dəstək" ictimai birliyinin rəhbəri Rəna Mahmudovaya, ştatdankənar müxbirimiz, Qəbələ Tarix və Diyarşünaslıq muzeyinin elmi işçisi İlhamə Seyidovaya, Mədəniyyət Mərkəzinin işçilərinə və digər qonaqlara söz verilmişdir.

Tədbirdə çıxış edənlər 151 il əvvəl Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş "Əkinçi" qəzeti haqqında geniş məlumat vermiş və Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan mətbuatının inkişafındakı əvəzsiz rolundan, eyni zamanda Ali Baş Komandan, Prezident İlham Əliyevin mətbuatımıza mətbuat işçilərinə verdiyi dəyərdən bəhs ediblər.

Sonda isə mövzu ilə əlaqədar videoçarx nümayiş etdirilib.

**İlahə EYVAZLI.**